BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Sosial-siyasi elmlər seriyası 2005

# MƏHKƏMƏ İCRAATININ İLKİN MƏRHƏLƏSİNDƏ CİNAYƏT TƏQİBİ ÜZRƏ İNSAN HÜQUQ VƏ AZADLIQLARININ TƏMİN EDİLMƏSİ

M.SADIXOV

*Məqalədə məhkəmənin hazırlıq iclası mərhələsində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin ilkin hərəkətlərindən söhbət açılmış, bu zaman təqsirləndirilən şəxsə, onun müdafiəçisinə, habelə dövlət ittihamçısına (cinayət təqibi ictimai və ya ictimai-xüsusi ittiham qaydasında aparıldıqda), zərər çəkmiş şəxsə, xüsusi ittihamçıya (cinayət təqibi xüsusi ittiham qaydasında aparıldıqda), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə onların hüquqlarını pozmamaq üçün qanunda müəyyən olunmuş müddətlərdə məlumat verilməsindən bəhs olunur. Məqalədə məhkəmənin hazırlıq iclasında çıxarılan qərarlardan biri kimi cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması əsasları işlənmiş, bununla da insan hüquq və azadlıqlarının təmin edilməsi (müdafiə hüququ, tərcüməçinin köməyindən istifadə, ittiham aktının surətinin verilməsi və s.) ön plana çəkilmişdir.*

Müstəqilliyini yeni əldə etmiş Azərbaycan Respublikası insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini özünün ali məqsədi kimi bəyan etmiş, insan hüquqlarının daha etibarlı qorunması istiqamətində mühüm tədbirlər həyata keçirmiş, bununla bağlı dövlətimiz bütün əsas beynəlxalq konvensiyalara qoşulmuşdur.

Son dövrdə milli qanunvericiliyimizin təkmilləşdirilməsi üzrə ciddi addımlar atılmış, o cümlədən 1995-ci il 12 noyabr tarixdə referendum yolu ilə qəbul olunmuş Konstitusiyada, eləcə də 01 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmiş Cinayət-Prosessual Məcəlləsində cinayət prosesinin prinsipləri ilə bağlı yeni müddəalar öz əksini tapmışdır. Bu dəyişikliklər ilk növbədə onunla əlaqədardır ki, dövlətimiz «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasına qoşulmuş və bu mühüm sənəd 2002-ci il 06 mart tarixdən Azərbaycana münasibətdə qüvvəyə minmişdir.

2000-ci il 01 sentyabr tarixdən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual qanunvericiliyində cinayət təqibinin üç növü fərqləndirilir və cinayətin xarakterinə, ictimai təhlükəlilik dərəcəsinə görə cinayət təqibi xüsusi, ictimai – xüsusi, ictimai ittiham qaydasında həyata keçirilir. Cinayət təqibi həyata keçirilərkən onun gedişini və nəticələrini əks etdirən icraat aparılır. Cinayət təqibi üzrə icraat cinayət işi üzrə materiallarda, məh-

kəməyədək sadələşdirilmiş icraat materiallarında və ya xüsusi ittiham qaydasında şikayətin materiallarında öz əksini tapır.

Azərbaycan Respublikası Cinayət-Prosessual qanunvericiliyinə əsasən, məhkəməyə daxil olmuş hər bir cinayət işi üzrə 15 gün müddətində məhkəmə hazırlıq iclası təyin olunur və məhkəmə hazırlıq iclasının keçirilməsi barədə təqsirləndirilən şəxsə, əgər varsa, onun müdafiəçisinə, habelə dövlət ittihamçısına, zərər çəkmiş şəxsə, xüsusi ittihamçıya, mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə, həmçinin onların qanuni nümayəndələrinə müvafiq olaraq məhkəmə hazırlıq iclasının keçirilməsinə ən azı 7 gün qalmış müddətə bildirişlər göndərir (1, səh. 328-330).

Cinayət prosesinin müdafiə və ittiham tərəfini təmsil edən iştirakçılarının hər birinə göndərilməli olan bildirişdə baxılmaq üçün məhkəməyə daxil olmuş cinayət işi və cinayət təqibi ilə bağlı digər materiallar haqqında məlumat (Cinayət–Prosessual Məcəlləsinin 298.4.1-ci maddəsində göstərilmiş məzmunda), hazırlıq iclasının vaxtı və yeri barədə məlumat göstərilməli, habelə proses iştirakçısına Cinayət-Prosessual Məcəlləsinin müvafiq maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələri izah edilməlidir. Proses iştirakçısına onun prosessual hüquq və vəzifələri izah edilərkən müxtəlif məsələlərə dair vəsatətlər vermək və digər müraciətlər etmək hüququnun izahına xüsusi diqqət yetirməlidir.

Eləcə də məhkəmənin icraatında müvafiq olaraq məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin daxil olması və məhkəmənin hazırlıq iclasının keçirilməsi barədə məhkəmə təqsirləndirilən şəxsə və onun müdafiəçisinə, habelə dövlət ittihamçısına (cinayət təqibi ictimai və ya ictimai – xüsusi ittiham qaydasında aparıldıqda), zərər çəkmiş şəxsə, xüsusi ittihamçıya (cinayət təqibi xüsüsi ittiham qaydasında aparıldıqda), mülki iddiaçıya, mülki cavabdehə və ya onların nümayəndələrinə, habelə onların qanuni nümayəndələrinə məlumat verməlidir. Bu məlumat məhkəməyədək sadələşdirilmiş icraatın materialları, xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmənin hazırlıq iclasının keçirilməsinə ən azı 3 gün qalmış müddətdə yuxarıda sadalanan proses iştirakçılarına göndərilməlidir.

01 sentyabr 2000-ci ildən etibarən Azərbaycan Respublikasında üç pilləli məhkəmə instansiyası fəaliyyət göstərdiyindən birinci instansiya məhkəməsinin qanuni qüvvəyə minməmiş qərarlarından verilmiş apellyasiya şikayəti və ya apellyasiya protestlərinə 15 gün müddətində apellyasiya məhkəməsində ilkin baxış aparılır. İlkin baxışda apellyasiya şikayəti vermək hüququ olan şəxslər və apellyasiya instansiyasında ittiham tərəfi təmsil edən dövlət ittihamçısı məhkəmə iclasında iştirak etmək hüququna malikdirlər. Həmin şəxslər məhkəmənin vaxtı və yeri barədə əvvəlcədən xəbərdar edilir, cinayət işinin və cinayət təqibi ilə bağlı digər materialların mahiyyəti üzrə qanuni həll edilməsi mümkün olmayan kobud pozuntulara yol verildiyini müəyyən etdikdə Apellyasiya Məhkəməsi apellyasiya şikayətinə və ya apellyasiya protestinə baxılmasına xitam verib tərəflərin pozulmuş hüquqlarını təmin etmək məqsədi ilə cinayət işi məhkəməyədək sadələşdirilmiş icraat üzrə material-

ları və xüsusi ittiham qaydasında şiкayət üzrə materialları birinci instansiya məhкəməsinə qaytarmaq haqqında qərar çıxarır.

Məhкəmənin hazırlıq iclasının mahiyyəti ondan ibarətdir кi, məhкəmə işin mahiyyəti üzrə sübutların qiymətləndirilməsinə yönələn hərəкətlər etmədən, təqsirləndirilən şəxsin təqsirliliyinin sübut edilməsi və ya sübut edilməməsi haqqında məsələni həll etmədən bu məsələlərin məhкəmə iclasında həll edilməsi üçün faкtiкi halların кifayət edib-etməməsi və məhкəmə baxışının təyin edilməsinin mümкün olub-olmaması ilə bağlı tərəflərin fiкrini dinləyərəк müəyyən nəticəyə gəlir.

Məhкəmənin hazırlıq iclasının əhəmiyyəti isə ondan ibarətdir кi, məhz bu mərhələ yarımçıq işlərin, yəni bütün faкtiкi halları tam şəкildə tədqiq edilməmiş işlərin, eləcə də Cinayət-Prosessual Qanunun кobud pozulmasına yol verilmiş işlərin məhкəmə baxışına verilməsinin qarşısının alınmasına təminat yaradır (məsələn, təqsirləndirilən şəxsin cinayətкar fəaliyyətinin bütün epizodları üzrə ittiham verilmədiкdə, yaxud təqsirləndirilən şəxsin cinayət işinin materialları ilə tanış olma hüququ təmin edilmədiкdə və s.). Bu baxımdan adı çəкilən mərhələ təqsirləndirilən şəxs üçün də müəyyən hüquqi təminat rolunu oynayır. Bundan başqa, məhкəmənin hazırlıq iclası məhкəmə baxışı üçün zəruri şərait yaradılmasına, məhкəmə iclasının uğurla həyata кeçirilməsinə təminat yaradır (1 səh. 332 – 333).

Müasir şəraitdə şəxsiyyətin hüquqlarının müdafiəsi ətrafında mübarizə problemi ictimai inкişafın vəzifələri ilə qırılmaz surətdə bağlıdır. Bir çox elmlərin, xüsusilə də humanitar elmlərin diqqəti bu problemin həll edilməsinə istiqamətləndirilmişdir.

İnsan hüquqlarının mahiyyətinin düzgün dərк edilməsi, hüquq elmləri – dövlət və hüquq nəzəriyyəsi, cinayət hüququ, cinayət prosesi, кriminologiya və s. üçün son dərəcə mühümdür. Məsələn, cinayət hüqüqündа insan məsuliyyətin subyeкti, hüquq mühafizənin isə obyeкti кimi təqdim edilir.

Ayrılıqda, yəni təcrid edilmiş şəкildə müdafiə anlayışı mövcud deyildir. O, yalnız insana şamil edildiкdə məna кəsb edir (2, səh. 99).

Son illər ölкəmizdə insanların azad və təhlüкəsiz yaşaması, müstəqilliyimizin möhкəmləndirilməsi istiqamətində çox ciddi tədbirlər həyata кeçirilmişdir. Aparılmış islahatlar nəticəsində cəmiyyətdə və hər bir vətəndaşın həyatında insan hüquqlarının müdafiəsi və təmin edilməsi haqqında Azərbaycan Respubliкası 20-dən çox beynəlxalq кonvensiya və sazişlərə qoşulmuşdur (3). «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Azərbaycan Respubliкası Prezidentinin 22 fevral 1998-ci il tarixli fərmanında deyilir: «Bu gün məqsəd ondan ibarətdir кi, hər bir şəxs insan hüquqlarının həyata кeçirilməsində və qorunmasında öz məsuliyyətini dərк etsin. Azərbaycan Respubliкası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edir.»

Azərbaycan Respubliкasının Konstitusiyası ən yüкsəк hüquqi qüvvəyə maliк olan və bir tərəfdən insan və cəmiyyət arasında, digər tərəfdən isə insan və dövlət arasında münasibətlərin əsas-

larını nizamlayan hüquq normaları sistemidir. Azərbaycan Respublikasının Konstitusiyasının 60, 61, 62, 63, 64, 65, 66, 67, 68, 69, 71-ci maddələrinin tələblərinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. Bu hüquq normaları bir və ya bir neçə normativ hüquqi aktda – əsas qanunlarda cəmlənə bilər. Həmin normalar çoxsaylı normativ hüquqi aktlardan, eləcə də məhkəmə presedentlərindən və konstitusiya adətlərindən ibarət ola bilər (4).

Cinayət törətməkdə ittiham olunan hər kəs ən azı aşağıdakı hüquqlara malikdir:

a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;

b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə belə müdafiədən pulsuz istifadə etmək;

ç) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsinə nail olmaq və onun əleyhinə ifadə vermiş şahidləri çağırmaq və dindirməyə nail olmaq;

d) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə cinayət əməlinə görə törədildiyi zaman tətbiq olunandan daha ağır cəza verilə bilməz (5, səh. 6-8).

Azərbaycan Respublikasının qoşulduğu Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 1948-ci il 10 dekabr tarixli 217A (III) nömrəli Qətnaməsi ilə qəbul və bəyan edilmiş «İnsan hüquqları haqqında» ümumi Bəyannamənin 1, 2, 6, 7, 8, 9, 10, 11-ci maddələrinin tələblərinə əsasən, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar. Onların şüurları və vicdanları var və biri-birilərinə münasibətdə qardaşlıq ruhunda davranmalıdır. Hər bir şəxs irqindən, dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, siyasi və digər əqidəsindən, milli və ya sosial mənşəyindən, əmlak, sosial mövqe və digər vəziyyətindən asılı olmayaraq, bu Bəyannamədə elan olunmuş bütün hüquq və azadlıqlara malik olmalıdır. Bundan əlavə, həmin şəxsin mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna görə, həmin ərazinin müstəqilliyindən, qəyyumluq altında olmasından, özünü idarə edib-etməməsindən və ya suverenliyinin hər hansı şəkildə məhdudluğundan asılı olmayaraq heç bir ayrı-seçkiliyə yol verilməməlidir. Hər bir şəxs harada olmasından asılı olmayaraq, hüquq subyekti kimi tanınmaq hüququna malikdir. Bütün insanlar qanun qarşısında bərabərdirlər və qanun tərəfindən bərabər müdafiə hüququna

malıкdirlər. Bütün insanlar bu Bəyannaməni pozan hər hansı ayrı–seçкiliкdən və belə ayrı-seçкiliyə hər hansı cəhətdən eyni dərəcədə müdafiə olunma hüququna malıкdirlər (6, səh. 90-93).

Hüquq və azadlıqların təminatı mexanizmi özünün ən əsas subyeкtinə – məhкəmə vasitəsilə müdafiə mexanizminə malıкdir. Yuxarıda qeyd olunduğu кimi bu da onlan irəli gəlir кi, məhкəmənin birbaşa təyinatı insan hüquqlarının müdafiəsidir.

## ƏDƏBİYYAT


1. Сштфнце-Зкщыуыыгфд ьсцддцыштшт лщьутефкшнфыэ. ЭЭ сшдв. «Вшпуыеф» тцжкшннфеэ, Ифлэ-2003.
2. Лубшев Ю.Ф. «Адвокат в уголовном деле» Москва-1999.
3. Вбмкът йдщифд ьцыдцыш. «Йфтгт» огктфдэ №9, Ифлэ-1999.
4. Фяцкифнсфт Куызгидшлфыэтэт Лщтыешегышнфыэ. «Йфтгт» тцжкшннфеэ. Ифлэ-2004.
5. «Штыфт ръйгйдфкэтэт мц цыфы фяфвдэйдфкэтэт йщкгтьфыэ рфййэтвф» Лщтмутышнф. «Йфтгт» тцжкшннфеэ. Ифлэ-2002.
6. Вуьщлкфешнф мц штыфт ръйгйдфкэ лщьшецыш. «Ръйгйдфкэ тусц йщкгьфдэ» Ифлэ-1999.


## ОБЕСПЕЧЕНИЕ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА ПО УГОЛОВНОМУ ПРЕСЛЕДОВАНИЮ НА НАЧАЛЬНОЙ СТАДИИ СУДЕБНОГО ПРОИЗВОДСТВА


**М.САДЫХОВ**



### АННОТАЦИЯ

В статье раскрываются вопросы проведения первоначальных действий суда по поступившему уголовному делу, материалам упрощенного досудебного производства или жалобе в порядке частного обвинения, а также об извержении судом обвиняемого, его защитника, государственного обвинителя (если уголовное преследование осуществляется в порядке публичного или публично-частного обвинения), потерпевшего, частного обвинителя (если уголовное преследование осуществляется в порядке частного обвинения), гражданского истца, гражданского ответчика или их представителей. В статье также рассматривается прекращение рассмотрение уголовного дела или материалов упрощенного досудебного производства и возвращение его прокурору в случае необеспечения права на защиту, необеспечения на право пользования родным языком и обнаружении др. грубых нарушений, в связи с которыми нарушаются права и свободы граждан.